## Pervane Zengezurlu

### Dünya

Doğma ana kimi öz qucagını,
Açdın neçə qıza, oğula, dünya.
Baş açan olmadı nə sirlərin var,
Döndün əfsanəyə, nağıla dünya.

Çoxu unudaraq öz viçdanını,
Söküb uçurdular kəhkəşanını.
Oğul tökəcəkdi ata qanını,
Söylə,gələrdimi ağıla dünya?

Çox cənnət guşəndə bayquş uladı,
Namərdlər köksündə ocaq qaladı.
Hərə bir tərəfdən soydu, taladı,
Sovruldun sağıla-sağıla dünya.

Səndə günah gördü kim çəkdi cəfa,
Gah zalım dedilər, gah da bivəfa,
Kimi ac, kimi də sürərək səfa,
Aldandı şəkərə, noğula dünya.

Açıldı güllələr, susdu vicdanlar,
Sinəni boyadı çox nahaq qanlar,
Pərvanə yalvarır, siz ey insanlar,
Amandır qoymayın dağıla dünya.